Ədalət .-2025.- 7 mart(№9).-S.16.



# İLK ŞUŞALI SSRİ İDMAN USTASI

**O, 1940-cı il dekabrın 17-də qədim Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1947-ci ildə Şuşa şəhər 1-nömrəli orta məktəbin 1-ci sinfinə getmiş, 1958-1959-cu tədris ilində həmin məktəbin X sinfini müvəffəqiyyətlə bitirmişdir.**

Zakir Babayev hələ məktəbdə oxuduğu illərdə bədən tərbiyəsi dərslərini sevmiş, idmanın güləş və futbol növünə daha çox meyl etmişdir. Onun söylədikləri:

Artıq 8-ci sinifdə oxuyurdum, bir çox müəllimlər bizə dərs keçirdilər. Hər bir müəllimin şagirdlərin qəlbində öz yeri var. Ümumiyyətlə, mənə dərs deyən müəllimlərin hamısından razıyam. Onların mənə verdikləri təlim-tərbiyənin hesabına həyatda özümə yer tapa bilmişəm. Lakin ən çox yadımda qalan və heç vaxt unudulmayan tarix müəllimim İsmauıl İsmayılovdur.

Sentyabr ayıdır, məktəbə gəlmişik. Bir-bir müəllimlər sinfə daxil olub, dərslərini keçib gedirdilər. Tarix dərsi olanda sinfə uca boy, sağlam bədənli bir cavan oğlan daxil oldu. Biz hamımız ayağa qalxdıq. O, bizimlə salamlaşdı. Lakin əyləşin deməd. O, bir-bir partaların yanından keçərək oğlanların qolunu, boynunu yoxlayıb nəzərdən keçirdi. Beləliklə, bütün oğlanları yoxladı və sonra əyləşin dedi. O, özünü bizə təqdim edib dedi: "Mənim adım İsmayıl, familiyam isə İsmayılovdur. Bu gündən sizə tarix və Konstitusiya dərslərini mən keçəcəyəm". Sonra bitirdiyi ali məktəbin adını dedi-Azərbaycan Dövlət Universitetinin tarix fakultəsi. O, sözünə davam edib, bizə tələbəlik illərindən danışdı. Sonra dedi ki, Bakıda klassik güləşlə, yəni Yunan-Roma güləşi ilə məşğul olub və ali məktəblər üzrə çempion olub, özü də 1-ci dərəcəli idmançıdır. Daha sonra dedi: "Mən şəhərdə və Pedaqoji texnikumda güləş bölməsi açmışam, kim istəyir dərsdən sonra adını yazdırsın".

Mən bu sözlərdən sonra dərsin qurtarmasını səbrsizliklə gözləyirdim. Elə zəng olan kimi müəllimin stoluna birinci mən yaxınlaşdım və adımı yazdırdım. Məndən sonra bir neçə nəfər də adlarını yazdırdı. İsmayıl müəllim uşaqların adlarını yazıb qurtardı və dedi: "Kim adını yazdırıb həftənin tək günləri saat 5 tamamda gəlsin şəhər pionerlər evinə".

Həftənin birinci günü saaat 5- ə qalmış gəldim pionerlər evinə. Artıq bəzi uşaqlar da gəlmişdi. Həm böyük yaş qrupundan, həm də mən yaşda olan və məndən aşağı yaş qrupundan olan uşaqlar var idi. İsmayıl müəllim otaqdan dəhlizə çıxıb, uşaqları gördü və dedi: " Maşallah nə çoxsunuz". Sonra komanda verdi: "Sağ tərəfdə boy sırası düzlən". Biz də düzləndik. Hamı diqqətlə İsmayıl müəllimə baxırdı. İsmayıl müəllim bizə güləşmənin qaydalarından, güləşçinin geyimindən və güləşçiyə lazım olan bir çox şeylər haqda danışdı. Elə həmin gün biz uşaqları yaş qrupuna ayırdı və məşqlərinkeçirilməsi vaxtını dedi. Artıq məşqlərə başladıq, güləşmənin hərəkətlərini, fəndlərini öyrənirdik. Bir neçə həftədən sonra bizi cütlüklərə bölüb güləşdirirdi.

Mən həmişə uşaqlıq dostum Tofiq Zeynalovla məşq edirdim. Tofiq fiziki cəhətdən güclü, güləş hərəkətlərini və fəndlərini bilir, texniki cəhətdən hamımızda irəlidə idi. Ona görə də o, bizdən bir qədər əvvəl məşqlərə başlamışdı, güləş hərəkətlərini sərbəst yerinə yetirirdi. Tofiqdən başqa Elxan Əsədov, Mənsur Məmmədov, Rizvan Hacıyev, Famil Quliyev, Yusif Xudiyev, Böyükkişi Səfixanov, Tariyel Kazımov, Nazim İsayev, Herman Bəhmənov, Ceyhun Məmmədov və başqa həmyaşıdlarım, böyük yaş qruplarında isə Rəhman Teymurov, Şahlar Ələsgərov, Oqtay Babayev, Kamil və Məhəmməd Quliyev qardaşları, Altay Rüstəmov, Qorxmaz Əsədov və başqaları məşqlərə gələrdilər. Biz Şuşa birinciliyində, Qarabağ birinciliyində iştirak edərdik. Birinciliklərdə mükafata layiq yerləri tutanlar Respublika birinciliyində və Cəmiyyətlərin Mərkəzi Şurasının Respublika birinciliklərində iştirak



edərdilər. Şuşanın güləş komandası İsmayıl müəllimin rəhbərliyi altında Qarabağda ən güclü komanda sayılırdı. Həmişə Qarabağ birinciliyini Stepanakertdə, Mardakertdə və Martunidə keçirərdilər. Bir dəfə də olsun güləş yarışlarını Şuşaya salmırdılar....

1957-ci ildə Zakir Babayev güləş üzrə şəhər birinciliyi uğrunda yarışlarda iştirak edir. Bu yarış Zakir üçün ilk imtahan idi. O, bu imtahandan qalib çıxmaq üçün var qüvvəsini sərf edir. Lakin II yerlə kifayətlənməli olur. Deyilənə görə, Zakir Babayev məşqçisi İsmayıl İsmayılovun dayısı Abış kişi (o, el arasında cavanlığında güləşçi kimi məşhur idi, eyni zamanda sevimli müğənnilərimiz xalq artisti Flora Kərimovanın və əməkdar artist Cavanşir Məmmədovun babası idi) güləş məşqlərində və rəsmi yarışlarda müntəzəm olaraq iştirak edirmiş. Bu nurani qəca güləşin sirlərini yaxşı bildiyindən idmançılara dəyərli məsləhətlər verir və onlara qayğı göstərirdi. Abış kişi Zakir Babayevin güləş uslubuna baxıb onun cəldliyini, bacarığını, əsl güləşçiyə xas olan xüsusiyyətini, işlətdiyi fəndlərini, texnikasını, qüvvəsini belə qiymətləndirmişdir: " Bu uşağın yaxşı və parlaq gələcəyi var. Onun qayğısına qalmaq, yeməyinə fikir vermək lazımdır.".

Elə həmin il Fizuli rayonunda Yunan-Roma güləşi üzrə Qarabağ açıq birinciliyi keçirilir. Həmin yarışda da Zakir II yeə sahib çıxır.

1958-ci ildə Bakıda gənclər arasında keçirilən Azərbaycan birinciliyində yüngül çəkidə Zakir Babayev bütün rəqiblərinə qalib gəlir. Final görüşündə SSRİ çempionu Rasim Rəsulovla (O, əslən şuşalıdır) azacıq üstünlüklə uduzaraq II yeri tutub.

25 noyabr 1959-cu ildə "Məhsul" Cəmiyyəti Mərkəzi Şurasının çempionatında iştirak edən klassik üsulla güləşənlər bu yarışlara inadla və uzun müddət hazırlaşdıqlarını göstərdilər. Yarışlar maraqlı olduğu üçün naxçıvanlıların qələbəsi də şərəfli idi. Axı bu kollektivin beş nəfər üzvü çempion adını almışdır. Lakin təkcə onlar fərqlənmədilər. Birincilikdə yaxşı texniki və taktiki hazırlıq nümayiş etdirən bacarıqlı gənc güləşçilər az deyildi. Məsələn, yarımyüngül çəkidə gənc güləşçi Zakir Babayevin çıxışını (DQMV) qeyd etmək istərdim. O, bütün görüşlərini olduqca çevik keçirib, bir-birinin ardıca işlətdiyi fəndlərlə rəqiblərini çaşdırırdı. Zakir Babayev təsadüfən naxçıvanlı F. Nəcəfova uduzdu. Qalan görüşlərdə isə onun rəqiblərindən heç biri üç dəqiqə də davam gətirə bilmədi. Beləliklə Zakir Babayev II yeri tutdu.

Bundan başqa, Dağlıq Qarabağ Muxtar Vilayətinin komandası tərkibində Yerevanda "Spartak" komandası ilə yoldaşlıq görüşündə, Fizulidə Qarabağın açıq birinciliyində iştirak edərək, hər ikisində rəqiblərin hamısına qalib gəlmişdir.

Zakir Babayev sərbəst güləşmənin ən görkəmli ustalarından biri sayılır. O, 18 yaşlı gənc ikən Vilayət yarışlarında çıxış edərək qabaqcadan keçirilən bütün görüşlərdə qələbələr qazanmışdır. O, böyük fiziki qüvvəyə malik olması ilə fərqlənən gənc şuşa güləşçisi və bacarıqlı idmançısıdır. Zakir Babayev Şuşada, Qarabağda, o cümlədən Dağlıq Qarabağda və Azərbaycanda böyük şöhrət və hörmət qazanmışdır.

O, 1960-cı ildə Qazaxda keçirilən Respublika birinciliyində iştirak edərək, iki rəqibinə qalib gəlib, üçüncü rəqiblə naxçıvanlı güləşçi ilə güləşərkən "Bedro" fəndini işlədərək onun kürəyini xalçaya yapışdırdıqda o, mənim qabırğamı iki əli ilə sıxaraq zədələmişdi. Ondan sonra mən növbəti görüşlərə çıxa bilməmişəm.

Həmin il mən imtahan verib Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil oldum. Bununla da Qarabağ yarışlarından uzaqlaşdım. Artıq yeni həyat, tələbəlik illəri və yeni idman yarışları başlayırdı. Mən institun yataqxanasında dörd il yaşamalı oldum.

Mən institun birinci kursunda oxuyarkən çox korluq çəkdim. Həm maddi, həm də mənəvi cəhətdən. Birinci kursdan sonra isə şəhər mühitinə, tələbəlik illərinə yavaş-yavaş uyğunlaşırdım. İnstitun ictimai işlərində fəal iştirak edirdim. İkinci kursda institun həmkarlar təşkilatının sədr müavini, həm də tələbə təşkilatı sədrinin köməkçisi idim. Həmkarlar təşkilatında ictimai iaşə sektoruna rəhbərlik edirdim.

Yəni bütün yemək talonlarına, putyovkalara nəzarət və paylanması mənə baxırdı. Birdən elə olurdu ki, bütün tələbələrə verilən yemək talonlarının yarısını mənimlə bir qrupda oxuyan uşaqlara və imkanı aşağı olan tələbələrə verirdim, o cümlədən mən özüm də idtifadə edirdim.

Demək olardı ki, oxuduğum vaxt heç kimə ehtiyacım olmayıb. Tələbəlik illərində daim təqaüd almışam, həm də atam hər ay mənə pul göndərirdi.

**1960-cı il idi. Atam gəlib Azərbaycana, mən də birinci kursu qurtarmaq üzrəyəm. May ayıdır, axırıncı imtahan partiya tarixindəndir. Qış imtahan sessiyasını yüksək qiymətlərlə başa vuran tələbələrə dekanlıq daxili əmrlə "Təşəkkür elan edib, siyahını asıb elanlar guşəsindən, mənim adım da orada olduğu üçün atam oxuyub çox sevinmişdi. Mən qiymət kitabımı atama verdim ki, qiymətimə baxsın. O, mənə dedi ki, hər şey mənə aydındır. Divarda artıq sənin adını oxumuşam. Beləliklə də, həm oxuyur, həm də məşq edib, bəzi yarışlarda iştirak edirdim. Mən oxuduğum dörd il müddətində cəmiyyətlərin birinciliklərində, Bakı şəhər birinciliyində, ali məktəblərin birinciliyində və Respublika birinciliklərində iştirak etmişəm.**

**(ardı var)**

**Əbülqasım Novruzov,**
**Qızıl qələm" mükafatı laureatı**